QABİL ƏLİYEV
*tarix elmləri doktoru,*
*Bakı Dövlət Universitetinin professoru*
E-mail:Qabil-Aliyev@mail.ru

# HEYDƏR ƏLİYEV İRSİNİN ÖYRƏNİLMƏSİNDƏ «TARİX VƏ ONUN PROBLEMLƏRİ» JURNALININ ROLU

*Açar sözlər:* Heydər Əliyev, irs, «Tarix və onun problemləri» jurnalı, araşdırma, məqalə
*Ключевые слова:* Гейдар Алиев, наследие, журнал «История и ее проблемы», исследование, статья
*Keywords:* Heydar Aliyev, the magazine of "History and its problems", heritage, research, article

*Heydər Əliyev irsinin araşdırılması, təbliği və geniş auditoriyaya, oxucu kütləsinə çatdırılması sahəsində çox önəmli rol oynayan mərkəzlərdən biri də tarix elmləri doktoru, professor Əsməd Muxtarovanın təsis etdiyi və baş redaktoru olduğu «Tarix və onun problemləri» jurnalıdır. Jurnalın 3 sayı bütünlüklə ulu öndərə həsr edilmiş və çox nüfuzlu alimlərin, Milli Məclisin deputatlarının, Prezident Administrasiyasının məsul işçilərinin 50 ilə qədərlik bir müddət ərzində Azərbaycan xalqının tarixi taleyində həlledici rol oynamış böyük şəxsiyyətin müxtəlif sahələrdəki xidmətlərini işıqlandıran məqalələri nəfis bir toplu şəklində oxuculara təqdim edilmişdir.*

Azərbaycan tarixinin müasir dövrünün böyük bir mərhələsi Heydər Əliyev şəxsiyyəti ilə sıx surətdə bağlıdır. Onun 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etməsi, 1993-2003-cü illərdə müstəqil Azərbaycan dövlətinin başçısı kimi çoxcəhətli fəaliyyətinin tədqiq edilməsi, öyrənilməsi çox böyük əhəmiyyətə malikdir. Bu baxımdan son illərdə Əliyevşünaslıq mərkəzlərinin yaradılması, çoxsaylı monoqrafiya və əsərlər yazılması, filmlər çəkilməsi və s. bu kimi addımlar təqdirəlayiqdir.

Heydər Əliyev irsinin araşdırılması, təbliği və geniş auditoriyaya, oxucu kütləsinə çatdırılması sahəsində çox önəmli rol oynayan mərkəzlərdən biri də tarix elmləri

doktoru, professor Əsməd Muxtarovanın təsis etdiyi və baş redaktoru olduğu «Tarix və onun problemləri» jurnalıdır.

Jurnalın ərsəyə gəlməsi Heydər Əliyevin 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının aparıcı alimləri ilə görüş zamanı tarixçilər qarşısında Vətən tarixinin tədqiq edilməsi sahəsində çox məsul vəzifələr irəli sürməsinə alim-vətəndaşın layiqli cavabı oldu. Əsməd xanım dərhal Azərbaycanın nüfuzlu alimlərinin böyük bir qrupunu öz ətrafında toplayaraq tariximizin təhrif olunmuş, saxtalaşdırılmış, bir çox hallarda isə sadəcə öyrənilməmiş, qəsdən unutdurulmuş problemlərinin araşdırılmasına, tədqiqatların nəticələrinin jurnal şəklində nəşr edilməsi işinə başladı. Gərgin zəhmət, yuxusuz gecələr tezliklə öz bəhrəsini verdi. Artıq 1997-ci ilin yayında «Tarix və onun problemləri» jurnalının ilk nömrəsi işıq üzü gördü. Və elə ilk sayından jurnal ümummilli liderin dövlət quruculuğu, daxili və xarici siyasət problemlərinin həll edilməsi, iqtisadiyyatın müxtəlif sahələrinin, elm və mədəniyyətin inkişaf etdirilməsi sahəsində xidmətlərini araşdıran məqalələrə geniş yer verdi. O zamandan bu günlərə qədər keçən 17 il ərzində nəşr edilmiş 70 sayın hər birində Heydər Əliyevin titanik fəaliyyətinin müxtəlif aspektlərini əks etdirən məqalələr dərc olunmuşdur.

Bundan əlavə, «Tarix və onun problemləri» jurnalının rəhbərliyi təkcə Azərbaycanda deyil, Türkiyədə, İranda, MDB məkanında və Qərbi Avropa ölkələrində maraqla qarşılanan bu nüfuzlu jurnalın 3 sayını bütünlüklə ulu öndərə həsr etmişdir. Jurnalın 2003-cü ildə 1-ci sayı Heydər Əliyevin anadan olmasının 80 illiyinə ithaf olunmuş, BDU-nun rektoru Abel Məhərrəmovdan akademik Teymur Bunyadova, Milli Məclisin deputatlarından Prezident Administrasiyasının məsul işçilərinə qədər çox nüfuzlu alimlərin, ictimai xadimlərin 21 adda məqaləsi dərc edilmişdir.

«Tarix və onun problemi» jurnalının 2013-cü ildə 2-ci sayı da Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş, 27 müəllifin ulu öndərin çoxcəhətli fəaliyyətinin müxtəlif cəhətlərini əks etdirən məqaləsi nəfis bir toplu şəklində oxuculara təqdim edilmişdir. Bu topluda görkəmli alimlərimiz: akademiklərdən A.Məhərrəmov, İ.Hacıyev, İ.Həbibbəyli, V.Məmmədəliyev, professorlardan Ə.Muxtarova,

A.İsgəndərov, İ.Zeynalov, İ.Hüseynova və digər müəlliflər 50 ilə qədərlik bir müddət ərzində Azərbaycan xalqının tarixi taleyində həlledici rol oynamış böyük şəxsiyyətin müxtəlif sahələrdəki xidmətlərini işıqlandırmışlar.

2004-cü ilin başlanğıcında isə jurnalın xüsusi buraxılışı nəşr edildi. Ulu öndərin xatirəsinə ithaf edilmiş bu sayda Heydər Əliyev şəxsiyyətinin böyüklüyü, Vətən qarşısında xidmətləri, Türk dünyasının lideri kimi fəaliyyətinin önəmli cəhətləri oxucuların diqqətinə çatdırıldı. Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsindən sonra üzləşdiyi mürəkkəb və ağrılı problemlərin həll edilməsində göstərdiyi əzm və iradə, dünyanın aparıcı dövlətlərinin liderləri ilə görüşlərdə xalqımızın və ölkəmizin mənafeyini qətiyyətlə müdafiə etməsi konkret faktlarla şərh edildi. Dərc edilmiş məqalələrdə ulu öndərin respublikamızda elm və təhsilin, mədəniyyətin müxtəlif sahələrinin inkişaf etdirilməsi istiqamətində tövsiyyə və göstərişlərinin əhəmiyyəti xüsusi qeyd edildi.

«Tarix və onun problemləri» jurnalı həm də Heydər Əliyevin tarixçilər və bütövlükdə elm adamları qarşısında qoyduğu vəzifələrə, verdiyi tapşırıqlara operativ cavab verməsi ilə də diqqəti çəkmişdir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında» 18 dekabr 1997-ci il tarixli fərmanında irəli sürülən müddəaları, qarşıya qoyulan vəzifələri jurnalın təsisçisi və redaksiya heyəti ictimai sifariş kimi qəbul etdi. Deportasiya problemini öyrənmək, tədqiq etmək, işıqlandırmaq üçün dərhal qollarını çırmaladı, hərəkətə keçdi. Artıq jurnalın 1998-ci ildə çıxan 1-ci sayında akademik Budaq Budaqovun, Baş Arxivlər İdarəsinin rəisi Ataxan Paşayevin və digər müəlliflərin bu məsələ ilə bağlı məqalələrini dərc etdi. Sonrakı illərdə də bu problemin araşdırılmasını daim diqqət mərkəzində saxladı, zaman-zaman sanballı araşdırmalara öz səhifələrində geniş yer ayırdı.

Bu cür həssas yanaşma Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi, 1918-ci il mart soyqırımı, Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 10 illiyi haqqında imzaladığı fərmanlarda qarşıya qoyduğu vəzifələrə də eyni dərəcədə

aiddir. Jurnalın rəhbərliyi bu problemlərə dair məqalələrin silsilə şəklində dərc edilməsi ilə ulu öndərin bu tapşırığını da ləyaqətlə yerinə yetirmişdir.

Jurnalın indiyə qədər dərc olunmuş 70 sayının hamısında Heydər Əliyevin müdrik bir ifadəsi, qiymətli tövsiyyəsi epiqraf kimi verilmişdir. Bu epiqraflar jurnalın qayəsini, məqsəd və məramını çox aydın ifadə edir. Bununla yanaşı, jurnalın hər bir sayında Heydər Əliyevin 50 ilə yaxın bir müddətdə fəaliyyətinin müxtəlif cəhətlərini əks etdirən məqalələr dərc edilmişdir. Müəlliflərin sırasında akademiklər, elmlər doktorları da var, elmi tədqiqat işi aparmağa başlayan magistr və aspirantlar da.

Bu cəhət əslində Əsməd xanımın böyük xeyirxahlığının, ürəyi genişliyinin nəticəsidir. Axı püxtələşmiş tədqiqatçı kimi yetişmək, sanballı əsər və məqalə ortaya qoymaq üçün hər bir gənc nədənsə başlamalıdır, yazısını haradasa çap etdirməlidir. Əsməd xanımın elmi araşdırmaya yeni başlayan bu gənclərin qolundan tutması, jurnalın səhifələrində onların yazılarına yer ayırması, bir daha qeyd edirəm ki, böyük xeyirxahlığın, qayğı və diqqətin təzahürüdür.

Burada bir məsələni xüsusi vurğulamaq istəyirik. «Tarix və onun problemləri» jurnalının redaksiyasında gənc tədqiqatçıların yazılarına həmişə xüsusi diqqət və qayğı ilə yanaşılması artıq bir ənənəyə çevrilmişdir. Jurnalın redaksiyası fəaliyyətə başladığı zamandan etibarən, demək olar ki, hər il magistr və doktorantların məqalələrinin toplandığı xüsusi əlavəni nəşr etməkdədir. Gənc tədqiqatçıların araşdırmalarının nəticələrini əks etdirən məqalə və tezislərinin bu yolla ləngimədən, operativ surətdə dərc edilməsi, onların üzləşdikləri ciddi bir problemi həll etməyə imkan verir.

Əsməd xanımın təsis etdiyi jurnal mənim də həyatımda, elmi-pedaqoji fəaliyyətimdə önəmli rol oynamışdır. 90-cı illərin ortalarında doktorluq dissertasiyası üzərində işi başa çatdırdığım zaman, o dövrün bütün tədqiqatçıları kimi, üzləşdiyim ən ciddi problem elmi jurnallarda məqalə dərc etdirmək olmuşdu. Çünki həmin dövrdə nə Bakı Dövlət Universitetinin "Xəbərləri", nə də Azərbaycan Milli Elmlər Akademiyasının "Xəbərləri" və "Məruzələri" müntəzəm buraxılırdı. Yaxşı yadımdadır, 1996-cı ildə Bakı Dövlət Universitetinin elmi jurnalında məqalə dərc etdirmək niyyəti

ilə jurnalın Tarix fakültəsindən olan məsul nümayəndəsi mərhum professor Ruhulla Orucova müraciət etdikdə, o çox əsəbiləşdi. Anlamadığım bir münasibətlə qarşılaşmışdım. Ruhulla müəllim gileyləndi ki, 3-4 il əvvəl qəbul etdikləri məqalələr hələ də çap edilməmiş qalır. Doğrudan da, 1996-cı ildə Universitetin elmi jurnalına təqdim etdiyim məqalə yalnız 2000-ci ildə işıq üzü gördü.

Elə buna görə də, 1997-ci ildən müntəzəm nəşr edilən "Tarix və onun problemləri" jurnalı tarixi araşdırmalarla məşğul olan bütün tədqiqatçılar üçün xeyli müddət yeganə ümid yeri olaraq qaldı. Ali Attestasiya Komissiyasının nüfuzlu sahə jurnallarında məqalə dərc etdirmək tələbini yalnız bu jurnalın hesabına yerinə yetirmək mümkün oldu. Universitetin və Azərbaycan Milli Elmlər Akademiyasının elmi jurnalları yalnız 2000-ci illlərdən etibarən as-çox müntəzəm çap edilməyə başlandı. Bununla belə, "Tarix və onun problemləri" jurnalı yenə də bütün tədqiqatçıların elmi məqalələrini qısa müddət ərzində çap etdirmək istəyini problemsiz, qeyd-şərtsiz yerinə yetirməkdə lider olaraq qalmaqdadır.

Əsməd xanım jurnalının hər bir sayının səviyyəli, sanballı çıxması üçün böyük əmək sərf etməkdə davam edir. Müxtəlif tarixi problemlərin araşdırılmasına həsr edilmiş məqalələrə, xüsusən də Azərbaycan dövlətçiliyinin möhkəmlənirilməsində ümummilli liderin xidmətlərinin tədqiqinə jurnalın səhifələrində geniş yer ayırır.

Böyük əminliklə ümid edirik ki, «Tarix və onun problemləri» jurnalı Heydər Əliyevin irsini öyrənmək, təbliğ etmək, yaymaq sahəsində nəcib fəaliyyətini bundan sonra da böyük əzmlə davam etdirəcəkdir.

**ГАБИЛЬ АЛИЕВ**

***доктор исторических наук,***

***профессор Бакинского Государственного Университета***

## РОЛЬ ЖУРНАЛА «ИСТОРИЯ И ЕЕ ПРОБЛЕМЫ» В ИЗУЧЕНИИ НАСЛЕДИЯ ГЕЙДАРА АЛИЕВА

Журнал «История и ее проблемы», учредитель и главный редактор которого профессор Асмад Мухтарова, является одним из центров, играющих важную роль в изучении, пропаганде и доведении до широкой аудитории, читательской массе наследия Гейдара Алиева. В целиком посвященных общенациональному лидеру азербайджанского народа трех номерах журнала статьи видных ученых, депутатов Милли Меджлиса, ответственных сотрудников Администрации Президента, посвященные освещению заслуг великой личности, игравшей решающую роль в судьбе азербайджанского на протяжении почти 50 лет, в различных областях, преподносятся читателям в виде изысканно оформленного сборника.

**QABIL ALIYEV**

***Prof.Dr.***

***Baku State Universiteti***

## THE ROLE OF THE MAGAZINE OF "THE HISTORY AND ITS PROBLEMS" IN THE STUDY OF THE HERITAGE OF HEYDAR ALIYEV

One of the main centers in learning, propogating of Heydar Aliyev's rich heritage and passing it to a large readers' auditorium is the magazine called "The History and its problems", the foundress and editress-in-chief of which is professor Asmad

Mukhtarova. In three issues of this authoritative magazine one can meet number of scientific papers written by the members of the parliament, executive officials of the presidential administration of the Azerbaijan, some prominent professors whose articles thoroughly deal with the rich life experience of Heydar Aliyev.

***Məqalə "Tarix və onun poblemləri" jurnalının redaksiya heyətinin 07 may 2014-cü il tarixli qərarı ilə çap olunur.***